

# Muzeydə bir qız xalça toxuyur

*Xalq sənəti-xalqın əməyi sayəsində yaranıb, onun həyatını təmin edən və özündə xalqın bədii zövqünü əks etdirən təsviri-tətbiqi sənətə deyilir.*

*Bu sənət milli çərçivə daxilində yaranır, xalqın maddi mədəniyyətini təşkil edir.*

Azərbaycan mədəniyyəti tarixində xalq sənəti ən mühüm yerlərdən birini tutur. Bu sənətin bir çox nümunələrinin dünya əhəmiyyəti vardır. Buna görə də müxtəlif ölkələrin muzeylərində bu sənət nümunələrinin layiqli yer tutması təsadüfi deyildir. Xalq sənətində olan xalılar, toxuma və basma parçalar, zərgərlik məmulatları, metaldan, ağacdan, çinidən və daşdan hazırlanmış müxtəlif bədii sənət əsərləri həmişə xalq kütlələrinin həyatına nüfuz etmiş, onların məişətini zənginləşdirmişdir.

Qədim və geniş yayılmış sənət növlərindən biri də xalçaçılıqdır. Arxeoloji materiallara və yazılı mənbələrə əsasən bəzi tədqiqatçılar belə hesab edirlər ki, Azərbaycanda xalçaçılıqla hələ tunc dövründən, e.ə. 2-ci minilliyin sonu 1-ci minilliyin əvvəllərindən məşğul olmuşlar. Xalçaçılığa aid ən qədim və qiymətli arxeoloji materiallar Dağlıq kurqanlarındakı daimi buzlaq rayonlarında, habelə Mingəçevirdə əldə edilmişdir. Qədim xalçaçılıq Assuriya və Babilistanda da olmuşdur. Bütöv halda qalmış xalça Pazırık kurqanlarından tapılmışdır. Yüksək texnikaya və mürəkkəb çeşidə malik olan bu xalça e. ə. V - IV əsrlərə aiddir. Arxeoloji qazıntılar zamanı Mingəçevirdən I - III əsrlərə aid katakomba qəbirlərindən palaz və xalça qalıqları aşkar edilmişdir.

Azərbaycanda xalçaçılığın inkişafı haqqında Herodit, Klavdi Elian, Ksenofont və başqaları məlumat vermişlər. Xalça-müxtəlif rəng çalarlı naxış elementləri və təsvirlərlə bəzədilən bədii toxuculuq məmulatıdır. Dəyə, çadır, alaçıq, həmçinin yaşayış evləri və digər binaların divar bəzəklərində, döşəməsində istifadə edilir. Xalça yüksək estetik əhəmiyyət kəsb etməklə yanaşı otağın daxilində istiliyi saxlayır. Azərbaycan xalçaları kompozisiya zənginliyinə, naxış elementlərinin orijinallığına və rəng koloritinə görə digər Şərq xalçalarından əsaslı surətdə fərqlənir.

Bu xalçalar onların toxunma mərkəzlərinin, tayfanın, xalça toxuyan ustanın, yaxud naxış və kompozisiyanın adı ilə təsnif olunur. Məsələn: Azərbaycan xalçalarından "Aran", "Bərdə" "Qarabağ", "Açmayumma", "Pirəbədil", "Qonaq kənd", "Afurca", "Fəxralı" "Kəmərli", "Şıxlı", "Təbriz", "Şeyx Sədi", "Dörd fəsil" və s. misal göstərmək olar. Azərbaycanda xalça sənəti həm coğrafi mənafeyinə, həm də naxış kompazisiyası, rəng və texniki xüsusiyyətlərinə görə 4 əsas xalçaçılıq məktəblərinə ayrılır: Qarabağ xalçaçılıq məktəbi, Quba - Şəmkir xalçaçılıq məktəbi, Gəncə - Qazax və Təbriz xalçaçılıq məktəbləri.

Əl ilə toxunan xalçalar texniki xüsusiyyətinə görə xovlu və xovsuz olur. Xovlu xalçalardan daha əvvəllər istehsal olunmuş xovsuz xalçalar (palaz, zili, kilim, şəddə, vərni, çeçim, sumax) və xalça məmulatları (xurcun, heybə, yəşhər, qaşlığı, çuval, məfrəş, çul, xaral, tənbəki torbaları və s.) sadə və mürəkkəb üsullarla toxunulur. Xalçaların toxunuşunda heyvanların təbii rəngdə yunlarından və rənglənmiş iplərdən istifadə olunur. İplər müxtəlif bitkilər və bitki kökləri ilə, ağac, soğan qabığı, çiçək və s. təbii boyalarla boyanır. Xalça toxunuşunda həna, cəhrə, kirtik, daraq, ülgüc, həvə, yun darağı, sap, xalça qayçısı kimi alətlərdən istifadə olunur. Xalça ustaları bəzəkli və naxışlı xalçalarla yanaşı mürəkkəb məzmunlu, kompozisiyalı və portretli xalçalar da toxuyurlar. Xalça ustalarımız peşəkar rəssamlarla birlikdə 1930-cu ildən bəri olduqca gözəl xalçalar yaratmışlar. Azərbaycan sujetli xalçaları 1935-37-ci illərdə respublika sərgilərində, 1937-38-ci illərdə Parisdə və Nyu- Yorkda açılan ümumdünya sərgilərində, 1956-cı ildən başlayaraq müxtəlif vaxtlarda xalq demokratik ölkələrində və 1959-cu ildə Çində və başqa yerlərdə keçirilmiş respublika sərgilərində nümayiş etdirilmişdir. Azərbaycanda xalça toxuyan, məharətli əl işləri olan qadınlardan Sona Əhmədova, Gülnarə Mustafayeva, Ruqiyyə İsgəndərova, Zeynəb Ələkbərova, Rəşğəndə Teymurova və başqaları fərqlənmiş, xalqın böyük hüsn-rəğbətini qazanmışlar. Məzmunlu xalçaların yaradılması, onların yüksək bədii keyfiyyətli, son dərəcə qəşəng və əlvan olması Azərbaycan nəqqaş-rəssamı, görkəmli xalçaçılıq ustası Lətif Kərimovun adı ilə sıx bağlıdır. Onun xalçaçılıq sahəsində böyük elmi-bədii tədqiqatları, xüsusən müasir xalçaçılıqda müvəffəqiyyətlə tətbiq edilən motiv və element yaratmaq sahəsində görkəmli xidmətləri olmuşdur. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi dünyada ilk xalça muzeylərindən biridir. Bu muzey 1967-ci ildə yaradılmış, 1972-ci ildə isə açılışı olmuşdur. Hazırda həmin muzey onun yaradıcısı Lətif Kərimovun adını daşıyır və Bakının Neftçilər prospektindəki 123 nömrəli binada yerləşir.

Azərbaycanda xalqımızın keçmişini və bu gününü bizə xatırladan muzeylərə nəzər salsaq görərik ki, bu muzeylər içərisində Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin özünəməxsus yeri vardır. Muzey 1980-cı ildən fəaliyyətə başlamışdır. Muzeyin ekspozisiyası bizim eradan əvvəl III-II əsrlərdən başlamış bu günə qədərki, yəni 2300 illik bir dövrü əhatə edir. Qəbələ Rayon -Tarix Diyarşünaslıq Muzeyində təqribən e. ə. IV əsrlərdə formalaşan Qafqaz Albaniyasının paytaxtı Qəbələ şəhərində arxeoloji qazıntılar zamanı aşkar edilmiş eksponatlar nümayiş etdirilir. Bütün bu eksponatlar muzeydə mövzu əhəmiyyətinə görə tarixi ardıcıllıqla 10 şöbədə yerləşdirilmişdir. Qəbələ Rayon Tarix- Diyarşünaslıq Muzeyinə tamaşa etməyə gələn tamaşaçılar, şəhərimizin qonaqları muzeydə Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xalis Məmmədovun təşəbbüsü ilə təşkil edilmiş xalçaçılıq bölməsi ilə tanış olurlar. Burada xalq sənətinin ən zərif və incə növlərindən biri olan xalçanın toxunma mərhələləri ilə yaxından tanış olmaq olar. Xalq sənətini yaşadan muzeyin bu şöbəsinə daxil olduqda ilk növbədə tamaşaçının diqqətini xalça dəzgahı- hana, üzərindəki rəngarəng göz oxşayan saplar, yun əyirmək üçün istifadə olunan cəhrə cəlb edir. Muzeyin əməkdaşı Əntiqə Şamilova xalça toxunuşu mərhələlərinin kamil bilicisidir. O, xalçaçılığın sirlərini bu sənətə qarşı marağı olanlara sevə-sevə öyrədir. Muzeyimizdə qədim xalça növləri ilə də tanış olmaq olar. Bu xalçalar muzeyə yerli əhali tərəfindən bağışlanılmışdır. Muzeyimizə yenə də belə xalçalar bağışlayan olsa minnətdar olarıq.

**Xalidə Həmidova,**
**muzeyin əməkdaşı.**

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası